## *XATİRƏSİNİN ƏBƏDİLƏŞDİRİLMƏSİ*

### "Rəsul Rza" Fondu

"Rəsul Rza" Fondu, Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, Xalq şairi Rəsul Rzanın ədəbi irsini yaşatmaq və təbliğ etmək məqsədilə 1997-ci ildə təsis edilmişdir.

Fikrət Qocanın sədrliyi ilə Rəsul Rza fondu təşkil edilir və bu ildən Rəsul Rza mükafatlarını həmin fond verir.

2021-ci ildən fondun rəhbərliyini akademik Rafael Hüseynov davam etdirir. O, eyni zamanda Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin direktorudur.

### "Rəsul Rza" Beynəlxalq Ədəbiyyat Mükafatı




"Rəsul Rza" Beynəlxalq Ədəbiyyat Mükafatı - Azərbaycan xalq şairi Rəsul Rzanın adını daşıyan nüfuzlu ədəbi mükafatdır. Bu mükafat, Rəsul Rzanın ədəbi irsini yaşatmaq, onun poeziyasına və humanist ideallarına sadiq yazıçı və şairləri təltif etmək məqsədilə təsis olunub.

***Təsis ili:*** 1990-cı illərin sonlarında

***Təşkilatçı:*** Rəsul Rza Fondu və digər ədəbi-mədəni qurumlar

***Məqsəd:*** Bədii yaradıcılıqda yüksək humanist ideyaların təbliği, poeziyada yenilikçi yanaşmaların təşviqi və beynəlxalq ədəbi əlaqələrin gücləndirilməsi

***Sahə:*** Poeziya, publisistika, tərcümə və digər ədəbi janrlar

***Mükafatçılar:*** Azərbaycanın və digər ölkələrin tanınmış ədəbiyyat xadimləri

Hər il may ayında bir qrup ziyalıya Azərbaycanın görkəmli şairi Rəsul Rzanın doğum günü (19 may) ilə əlaqədar verilən bu mükafat Rəsul Rzanın ideya-mənəvi dünyasını yaşatmaqla yanaşı, çağdaş ədəbiyyatda insani dəyərlərin və yaradıcılıq azadlığının təşviqinə xidmət edir.

**Mükafat almış şəxslərdən bəziləri:**

| | | |
|---|---|---|
| ***Məmməd Alim*** | ***Aysel Xanlarqızı*** | ***Elnur Uğur*** |
| ***Kamal Abdulla*** | ***Ağalar Bayramov*** | ***Hüseyn Sözlü*** |
| ***Şəmsəddin Kuzəçi*** | ***Bilal Ararlı*** | ***Damət Salmanoğlu*** |
| ***Şəfəq Nasir*** | ***Qafar Cəfərli*** | ***Nazim Məmmədbəyov*** |
| ***Faiq Balabəyli*** | ***Nazim Muğanlı*** | ***Cavanşir Feyziyev*** |
| ***Rizvan Sədrxanov*** | ***Ramiz Əskər*** | ***Nəcməddin Mürvətova*** |

## Rəsul Rza adına Göyçay şəhər 1 nömrəli tam orta məktəb




Azərbaycanın görkəmli şairi Rəsul Rzanın adını daşıyan bir neçə təhsil və mədəniyyət müəssisəsi mövcuddur. Bu müəssisələr, onun zəngin ədəbi irsini yaşatmaq və yeni nəsillərə tanıtmaq məqsədi daşıyır.

***Ünvan:*** Nəriman Nərimanov küçəsi, Göyçay, AZ2300

***Əlaqə nömrələri:*** (+994 2027) 4-35-73, (+994 2027) 4-55-64

***Veb sayt:*** [goychay.edu.gov.az](http://goychay.edu.gov.az)

Məktəbdə müxtəlif ədəbi və mədəni tədbirlər keçirilir, şagirdlərə şairin yaradıcılığı ilə bağlı biliklər aşılanır.

## Göyçay rayonu Rəsul Rza adına Mədəniyyət mərkəzi



Mədəniyyət Mərkəzinin hazırda yerləşdiyi 1200 kv.m sahəsi olan iki mərtəbəli bina 1964-cü ildə xüsusi layihə əsasında tikilərək istifadəyə verilmişdir. Binada 400 yerlik tamaşaçı zalı, foye, qrim otağı,və 12 dərnək otağı yerləşir. Mərkəzə 1982-ci ildə Rəsul Rzanın adı verilmişdir.

Hazırda Mədəniyyət Mərkəzinin tabeliyində 9 kənd mədəniyyət evi və 18 kənd klub tipli müəssisə fəaliyyət göstərir.Mədəniyyət evi və klublarda 76 mədəniyyət və incəsənət işçisi çalışır.

## "Rəsul Rza" Ədəbiyyat Ocağı İctimai Birliyi

"Rəsul Rza" Ədəbiyyat Ocağı İctimai Birliyi, Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, xalq şairi Rəsul Rzanın adını daşıyan və onun zəngin ədəbi irsini yaşatmaq məqsədilə fəaliyyət göstərən bir qurumdur.

Bu birlik, əvvəllər ***"Rəsul Rza Ədəbiyyat Fondu"*** adı ilə tanınırdı. Lakin 2019-cu ildən etibarən adını dəyişərək "Rəsul Rza" Ədəbiyyat Ocağı İctimai Birliyi adını almışdır. Birliyin əsas məqsədi, Rəsul Rzanın əsərlərini təbliğ etmək, onun ədəbi mirasını gələcək nəsillərə çatdırmaq, yeni ədəbi qüvvələri dəstəkləmək, onlara öz yaradıcılıqlarını təqdim etmək üçün fürsətlər yaratmaq, şeir oxuyuşları, ədəbi məclislər, kitab təqdimatları kimi tədbirlər təşkil etmək, şeir toplusu, nəsimə, roman və digər ədəbi əsərlər nəşr etmək, ədəbiyyatla bağlı ictimai tədbirlər təşkil etmək, ədəbiyyatsevərlərin bir araya gəlməsini təmin etməkdir.

Birliyin ənənəvi tədbirlərindən biri də Rəsul Rza mükafatının təqdimat mərasimidir. Bu mükafat, hər il Rəsul Rzanın doğum günü münasibətilə Azərbaycan Yazıçılar Birliyində keçirilən tədbirdə təqdim olunur. Mükafat, ədəbi yaradıcılıqda fərqlənən şəxslərə verilir.

**Göyçay şəhərində Rəsul Rzanın Ev-Muzeyi**




Göyçay şəhərində Rəsul Rzanın Ev-muzeyi AR Mədəniyyət Nazirliyinin 13 may 2004 il tarixli 148 saylı əmrinə əsasən yaradılmışdır. Rəsul Rza 19 may 1910 ildə hazırda ev-muzeyin yerləşdiyi bu evdə anadan olmuş, 1930 illərin əvvəlinə kimi bu evdə yaşamışdır. Ev XIX əsrin sonlarında Rəsul Rzanın atası Məmmədxanlı tərəfindən tikdirilmişdir.

Muzey 4 zaldan ibarət olub, şairin yaradıcılığının müəyyən dövrünə görə ekspozisiya zalları üzrə bölünmüşdür.



Eksponatların çox hissəsi şairin oğlu, AYB-nin sədri, Xalq yazıçısı Anar tərəfindən muzeyə bağışlanıb. Muzeydə 449 eksponat nümayiş olunur.

1-ci zalda ev-muzeyinin yaradılması haqqında əmr, Rəsul Rza haqqında ümumi məlumat, Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Rəsul Rzanın anadan olmasının 100 illiyi ilə əlaqədar yubileyin keçirilməsi haqqında sərəncamı asılmışdır. Bundan əlavə, Rəsul Rza poeziyasında Azərbaycançılıq məfkurəsi haqqında Ümummilli Lider Heydər Əliyevin söylədiyi fikirlər və çıxışlarından sitatlar nümayiş etdirilir. Həmçinin Sosialist Əməyi Qəhrəmanı Rəsul Rzanın aldığı mükafatlar, fəxri adlar, bu mövzu ilə bağlı fotostendlər, Rəsul Rza adına Göyçay rayonu Mədəniyyət evinin, şairin vaxtilə oxuduğu, indi adını daşıyan orta məktəbin, şairin heykəltaraş E.Hüseynova tərəfindən yaradılmış büstünün, Rəsul Rza adına küçənin fotoşəkilləri, "Rəsul Rza yaddaşlarda" fotoguşəsi bu zalda yer alır. Rəsul Rzanın anadan olmasının 70 illiyi ilə əlaqədar Sosialist Əməyi Qəhrəmanı fəxri adı verilməsi barədə SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanı, Heydər Əliyevin bununla bağlı çıxışından "Xalq üçün yaşayıb-yaratmaq" adı altında verilən sitatlar, şairin 100 illiyi ilə əlaqədar Türkiyədə keçirilən yubiley tədbirinin afişası, rəssam Arif Hüseynovun "Vaxt var ikən" şeirinə həsr olunmuş qrafik əsəri, şairin müxtəlif illərdə aldığı diplomlar, fəxri fərmanlar 1-ci zalın ekspozisiyalarını bəzəyir.



2-ci ekspozisiya zalında Rəsul Rzanın uşaqlıq və gənclik illərinə aid fotomateriallar, şairin valideynləri, ailəsi, qohumları ilə birlikdə çəkdirdiyi şəkillər, ailə üzvlərinin və qohumların şəkilləri, həyat yoldaşı Nigar Rəfibəyliyə aid fotostend, əmisi Qafar, əmisi və xalası oğlu Xalq yazıçısı Ənvər Məmmədxanlıya aid fotoşəkillər, Rəsul Rzanın müasirləri ilə birlikdə foto şəkilləri, şəxsi əşyaları, şeirlərindən seçmə parçalar, şairə məxsus piano nümayiş etdirilir.

3-cü ekspozisiya zalı şairin yaradıcılıq otağıdır. Otaqda şairə məxsus divar saatı, yazı masası, üzərində şairin yazı makinası, qələmqabı, kitab rəfi, mütaliə etdiyi qəzet və jurnalların bəzi nüsxələri, özünün və müasirlərinin əsərləri, şəxsi tarı, pencəyi, köynəyi, üzəri gümüşlə işlənmiş



albom, müxtəlif əlyazmaları, 2 kreslo, 2 mütəkkə, anası Məryəm xanıma aid məişət əşyaları – mis qablar, mis neft lampaları və s. nümayiş etdirilir.

4-cü zalda Rəsul Rza və Nigar Rəfibəyliyə məxsus məişət əşyaları, suvenirlər, çay dəsti, gül qabları, stolüstü saat, tüfəng, trümo, Rəsul Rzanın ailəsi ilə olan fotoşəkillər nümayiş etdirilməklə bərabər, Nigar Rəfibəylinin cehizlik xalçası, qiymətli eksponatlar qorunub saxlanılır.

2010-cu ildə muzey əsaslı təmir olunaraq yenidən istifadəyə verilibmişdir.

***Ünvan:*** Məhəmməd Füzuli küçəsi, Göyçay, AZ2300

***Telefon:*** (+994 2027) 4-23-74

**Bakı şəhərində Rəsul Rzanın Ev-Muzeyi**




Xalq şairi Rəsul Rzanın Bakı şəhərində xatirəsinin əbədiləşdirilməsi, onun həyat və yaradıcılığı haqqında gələcək nəsillərə daha dolğun məlumat çatdırılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 23 iyun 2022-ci il tarixli 3337 nömrəli Sərəncamına əsasən, Bakı şəhəri, Səbail rayonu, Rəsul Rza küçəsi 21/26, mənzil 18 ünvanında Rəsul Rzanın ev-muzeyi yaradılıb.

Sözügedən Sərəncamın icrasının təmin olunması məqsədilə Mədəniyyət Nazirliyinin 1 avqust 2022-ci il tarixli 229-f nömrəli əmr imzalanıb.

Azərbaycanın Xalq şairi Rəsul Rzanın və həyat yoldaşı Xalq şairəsi Nigar Rəfibəylinin Bakı şəhərində yaşadığı evdə yaradılan muzeydə nümayiş olunacaq əşyaların yoxlanılması və siyahısının hazırlanması məqsədilə Mədəniyyət Nazirliyi tərəfindən müvafiq işlər aparılmış, mənzildə mövcud olan ümumilikdə 5113 (beş min yüz on üç) əşya, o cümlədən mebellər, rəsm əsərləri, heykəllər, kitablar, şəxsi sənədlər, fotolar və əlyazmalar siyahıya alınıb.



Mədəniyyət Nazirliyinin 8 avqust 2023-cü il tarixli, 3-24/3-1-f-181/2023 nömrəli əmrinə əsasən, Rəsul Rzanın ev-muzeyi Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin balansına verilib.

Hazırda muzeyin təmir və ekspozisiyaların qurulması işləri davam etdirilir.

## Rəsul Rza adına küçə

Azərbaycanın müxtəlif bölgələrində, görkəmli şair və ictimai xadim Rəsul Rzanın adını daşıyan küçələr mövcuddur. Bu küçələr, onun ədəbi irsini və Azərbaycan mədəniyyətinə verdiyi töhfələri əbədiləşdirmək məqsədilə adlandırılmışdır.

**Ramana qəsəbəsi, Sabunçu rayonu**

*Rəsul Rza küçəsi, 11*

*Rəsul Rza küçəsi, 161*

*Rəsul Rza küçəsi, 163*

**Səbail rayonu**

*Rəsul Rza küçəsi, 2-8 ev / Üzeyir Hacıbəyov küçəsi, 2*

**Bakı şəhəri Məmmədli kəndi**

*Rəsul Rza küçəsi*

**Abşeron rayonu Digah qəsəbəsi**

*Rəsul Rza küçəsi*

## Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinə aid “Rəsul Rza” quru yük gəmisi



“Rəsul Rza” quru yük gəmisi, Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi QSC-nin (ASCO) Dəniz Nəqliyyatı Donanmasına məxsusdur və xarici sularda yükdaşıma əməliyyatlarında iştirak edir.

***Uzunluğu:*** 108,33 metr

***Eni:*** 16,74 metr

***Yükgötürmə qabiliyyəti:*** 5200 ton

***İstismara verilmə tarixi:*** 2016-cı ildə Türkiyənin Yalova şəhərində yerləşən “Tersan” tərsanəsində Azərbaycan bayrağı altında istismara verilib.

2020-ci ilin sentyabr ayında “Rəsul Rza” gəmisi “Zığ” Gəmi Təmiri və Tikintisi Zavodunda əsaslı təmir olunub. Təmir zamanı gəminin baş və köməkçi mühərrikləri, mexanizmləri (nasosları), boru və elektrik sistemləri, avtomatika və gövdə qaynaq işləri həyata keçirilib. Bundan əlavə, gəminin sualtı və suüstü hissələri abraziv qumla təmizlənərək rənglənib, yaşayış və xidməti otaqları müasir tələblərə uyğun təmir edilib. Təmir işlərindən sonra gəmi müvafiq yoxlamalardan uğurla keçərək dənizçilərin ixtiyarına verilib.

## Rəsul Rzanın memorial veb-saytı




"Musiqi dünyası" jurnalı və elektron nəşrlər mərkəzidir Azərbaycanın görkəmli şəxsiyyətlərinə, mədəniyyət və incəsənət xadimlərinə, elm və təhsil sahələrinə həsr olunmuş otuza yaxın müxtəlif səciyyəli veb-saytın yaradıcısı kimi tanınmışdır.

Jurnalın baş redaktoru, Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi, sənətşünaslıq doktoru, professor Tariyel Məmmədovun müəllifi və rəhbəri olduğu bu elektron resurslar Azərbaycan mədəniyyətinin təbliğində, yaşadılmasında, gələcək nəsillərə ötürülməsində və dünyada tanıdılmasında böyük əhəmiyyətə malikdir.

Üzeyir Hacıbəyli, Qara Qarayev, Əfrasiyab Bədəlbəyli, Tofiq Quliyev, Vaqif Mustafazadə kimi sənətkarlarımıza həsr olunmuş memorial saytlar sırasına indi Rəsul Rzanın veb-saytının əlavə olunması əlamətdardır. Belə ki, əsasən musiqi mədəniyyəti ilə bağlı elektron məhsulların hazırlanması istiqamətində ixtisaslaşmış "Musiqi dünyası" üçün poeziya dünyasına - Rəsul Rzanın yaradıcılığına müraciət musiqi ilə poeziyanın vəhdətindən doğan bir saytın meydana gəlməsinə təkan verdi.

"Rəsul Rza" memorial saytında şairin həyat yolu, yaradıcılığı - janrlar üzrə əsərlərinin mətni, onların tərcümələri, biblioqrafik məlumat, əlyazmaları, foto, audio və videoyazılar əhatə olunmuşdur.

"Rəsul Rza" veb-saytının özəlliyi ondadır ki, kompyuterdə şairin həyat və yaradıcılığını gözümüz qarşısında canlandırmaq imkanı qazanmış oluruq.

Saytın birinci bölməsi "Həyat yolu" adlanır. Burada Rəsul Rzanın tərcümeyi-halı, onun özü tərəfindən qələmə alınmış "Avtobioqrafiya"sı və əsərlərinin biblioqrafiyası yer almışdır. Elektron multimediya məhsulunun başlıca xüsusiyyətlərindən biri odur ki, təqdim olunan mətni vizual olaraq canlandırmaq, digər veb-səhifələrə keçməklə və ya başqa saytlarla əlaqə yaratmaqla informasiyanı dolğunlaşdırmaq olar. Bu baxımdan Rəsul Rzanın həyat yolu ilə bağlı olan insanlar haqqında, bilavasitə ailə üzvləri - dövrümüzün görkəmli şairəsi Nigar Rəfibəyli, xalq yazıçısı Anar və sənət dostları haqqında daha geniş bilgilər almaq mümkündür.

İkinci bölmə şairin əsərlərinə həsr olunmuşdur. Burada Rəsul Rzanın şeirləri, poemaları, pyesləri, publisistikası, Rəsul Rzanın dünya ədəbiyyatından tərcümələri və Rəsul Rza poeziyasından tərcümələr toplanıb. Şairin cild-cild çap olunmuş əsərləri külliyyatının bu bölmədə yerləşdirilməsi artıq onun həcmini təsəvvür etməyə imkan verir. Həm də burada hər hansı bir şeirin mətnini oxumaq deyil, eyni zamanda, onun bir neçə dilə - rus, ingilis, türk, fransız və s. dillərə - tərcüməsi ilə tanış olmaq, həmin şeiri aktyorların ifasında və şerə yazılmış mahnını müğənnilərin ifasında dinləmək olar.

Saytın fotoarxiv, audioarxiv, videoarxiv, epistolyar irsi kimi bölmələridə mövcuddur. Bütün burada toplanmış materiallar Salman Mümtaz adına Dövlət Ədəbiyyat və İncəsənət Arxivindən götürülmüşdür. Bu sənədlər adı çəkilən arxivin direktoru, əməkdar mədəniyyət işçisi Maarif Teymurovun böyük səyi və məsləhətləri ilə sayta daxil edilmişdir. Həmçinin, Rəsul Rzanın şəxsi

arxivi onun oğlu, xalq yazıçısı Anar tərəfindən redaksiyaya təqdim olunmuşdur. Layihənin baş məsləhətçisi, tanınmış naşir Nazim İbrahimovun Rəsul Rzanın zəngin irsinin toplanmasında mühüm rolu olmuşdur.